# Qəbələnin adını tarixə yazan həmyerlimiz

Bəşər övladı dünyaya gəldiyi gündən mübarizə aparır; yaşamaq uğrunda, vətən uğrunda, elm uğrunda, nailiyyət və zəfərlər uğrunda... Bəzən isə tale, ömür kitabına yazılmış bir yazı olur. Yüzlərin, minlərin içindən seçilmişlərdən olursan, daha mükəmməl, şəxsiyyət ilə, ziyalı düşüncəsi, zəkası ilə qələmə, elmə, təhsilə bağlı. Zəkasının, müdrikliyinin, savadının gücü o qədər güclü olur ki, əlinə qələm alıb yazdığı hər sətri nəsihət, həyat qanunu, elm qaynağına çevrilir. Belə dahilərimiz hər bir sahədə möhrünü vurub, əməyi ilə düşüncə və təfəkkürü ilə tarixə şanlı səhifələr yazırlar.

Azərbaycanın, o cümlədən Qəbələnin şərəfli keçmişində iz qoyan və bu gün də irsindən xəzinə tək istifadə olunan görkəmli ziyalılarımızdan İbrahim bəy Musabəyovun ədəbi tariximizdə əvəzsiz rolu var. İ. Musabəyov ziyalı, pedaqoq və maarifpərvər yazıçı kimi (1880 - 1942) Azərbaycan tarixində ilk cığırı açdı. "Neft və milyonlar səltənətində" əsərini yazmaqla ilk milli kinofilmin ssenaristi oldu. Qeyri-adi zəka sahibi kimi bilik və bacarığı, istedadlı yazıçı kimi dəyərli qələmi ilə Azərbaycan tarixinə böyük töhvə verdi. Bu gün onun əməyinin bəhrəsi olan hər bir əsəri dəyəri ilə gələcək nəsillər üçün əvəzedilməz ədəbi nümunədir. İ. Musabəyovun həyat və yaradıcılığı Azərbaycan ədəbi tarixində özünəməxsusluğu ilə seçilir. Dövrünün çətinliklərini, eybəcərliklərini görən İ. Musabəyov qələmi ilə gənc nəslə ibrətamiz həyat dərsliyi yazdı.

İ. Musabəyov 1880-ci ildə Azərbaycanın tarixi torpaqlarından qədim Qəbələ torpağında (keçmiş Qutqaşında) dünyaya göz açmışdır. İlk təhsilini doğma Qəbələdə alan İ. Musabəyov 1898-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olur. 1902-ci ildə seminariyanı bitirir, həmin ildə Şəki şəhərindəki üçüncü rus məktəbində müəllim kimi fəaliyyətə başlayır. 1911-ci ildə Bakıda ikinci rus məktəbində fəaliyyətini davam etdirir. 1913-cü ildə ədib Qafur Rəşad Mirzəzadədənin redaktorluğu ilə çıxan "Məktəb" jurnalında ədəbi fəaliyyətə başlayır. Bu jurnalda İ. Musabəyovun didaktik təlim və tərbiyəvi əhəmiyyətli hekayələri dərc olunur. İ. Musabəyov yaradıcılığında hər bir əsərin özünəməxsus ideya və məzmunu var. Lakn "Neft və milyonlar səltənətində" povesti daha çox nəzəri cəlb edir. 1916-cı ildə çap olunmuş bu povest bu gün də aktuallığını itirmir. Qeyd edək ki, bu əsər inqilaba qədər Azərbaycan bədii nəsrində neft sənayesi sahiblərinin və burjua



əxlaqının, pul hakimiyyətinin ifşasına həsr olunmuş əsərlər içərisində xüsusi yer tutur. "Neft və milyonlar səltənətində" povesti yazıçının yaşadığı zamanda diqqət və nəzərdə saxlanıldı, ictimaiyyətin bu povestə xüsusi maraq dairəsi genişləndi və ssenari əsasında A. D. Panora - Potyom-kinanın ssenarisi üzrə "Filma" fransız kino şirkəti 4 seriyadan ibarət kino - film çəkdi. Xatırladak ki, bu filmdə rus kino ustaları ilə yanaşı məşhur Azərbaycan aktyoru Hüseyn Ərəblinski, xanəndə Cabbar Qaryağdıoğlu, tarzən Qurban Pirimov, Mirmahmud Kazımovski rol almışdır. Əsərin ideya məzmunu hər zaman aktuallığını qoruduğu üçün geniş xalq kütlələrində maraq doğurduğuna görə əsərə yenidən müraciət olunur və 1980-ci ildə "Qızıl uçurum" adı ilə yenidən ekranlaşdırılır.

İ. Musabəyov XX əsrin əvvəllərində yazıb-yaratmış, dövrünün nasirləri içərisində qələmi ilə mövzu etibarilə düşündürücü və həyati əsərlər bəxş etdi bizlərə. Bu gün İ. Musabəyov pedaqoq, nasir, maarifpərvər ziyalı kimi Azərbaycan ədəbi mühitində özünəməxsus yer tutur. Qələmindən çıxan hər bir əsəri yaşadığı zamanı əks etdirməklə, xalqa nümunə və örnək idi. İ. Musabəyov yaradıcılığı həyatda necə yaşamağı , pisi yaxşıdan, ağı qaradan seçməyi, gələcəyə doğru istiqamətlənməyi təlqin edir. Qabaqcıl ziyalı kimi qələmi cəhalətdən işığa doğru səsləyir, elm, savad, xoşbəxt gələcək naminə xalqa doğru yol göstərir. Elə bütün bunlara görə digər ziyalılarımız kimi İ. Musabəyov da xalq düşməni kimi həbs olunaraq vətəndən sürgün edilmişdir. Xalqını xoşbəxt, savadlı, görmək istəyirdi, öz haqqlarını müdafiə etməyi bacarmağı təlqin edirdi İ. Musabəyovun qələmi.

14 sentyabr 1942-ci ildə sürgündə Karaqanda şəhərində dünyaya gözlərini əbədi yuman İ. Musabəyovdan bu gün bizə ədəbi xəzinə miras qaldı. Bu gün oxuyub əldə edəcəyimiz böyük həyat dərsi, nəsihət qaynağı, nümunə toplusu əxlaq normalarını əks etdirən, sevilə-sevilə öyrənilən bir xəzinə.

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyində İ. Musabəyovun həyat və fəaliyyətini əks etdirən bir çox tarixi nümunələr mühafizə edilməkdədir. İbrahim bəy Musabəyov böyük ziyalı nəslin, ziyalı övladı kimi Azərbaycan tarixində şərəfli iz qoydu. Bildiyimiz kimi, ədibin qızı Zemfira xanım Məmmədova uzun illər repressiya qurbanı olmuş atasına bəraət almaq üçün çox mübarizə aparmış və 1960-cı ilin əvvəllərində istəyinə nail olmuşdur. Bu gün muzeyin fondunda Zemfira xanımın illərlə həsrətini çəkdiyi, uzun mübarizələrlə əldə etdiyi "bəraət" sənədi mühafizə olunmaqdadır. O cümlədən muzeyin 1980-ci illərdə direktoru olmuş Xalis Məmmədovun ədibin qızı Zemfira Məmmədovaya yazdığı məktublarda mühafizə olunur. Qeyd edim ki, Zemfira Məmmədova bu məktublar vasitəsilə X. Məmmədova Musabəyovlar nəslinə məxsus bir neçə fotoşəkil və tarixi sənədləri təqdim etmişdir. Hazırda görkəmli pedaqoq, maarifpərvər yazıçının həyat və fəaliyyətini əks etdirən materiallar, o cümlədən digər tarixi nümunələr gələcək nəsillərə saxlanılır. Zemfira xanımın yazdığı xatirələrində İ. Musabəyovun sürgündə olarkən də yaradıcılığını davam etdirməsi haqqında məlumatlar yer alır. Azad sevgi, ailə-məişət mövzusu, realizm, əsl insani keyfiyyətlər, elmə-təhsilə diqqət İ. Musabəyovun yaradıcılığında mühüm yer tutduğu üçün dünənini, bu gününü və gələcəyi özündə birləşdirir. Bütün bunlara görə İbrahim bəy Musabəyov qələmindən çıxan hər bir əsər dəyərli, sevilən və ehtiyac duyulandır.

**İlhamə SEYIDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**

# Bakı Kamera Orkestrinin konserti

Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dəstəyi ilə keçirilən Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Bakı Kamera Orkestrinin Qəbələ Rayon Mədəniyyət Mərkəzində konsert proqramı keçirilmişdir. Bədii rəhbəri Azərbaycan Respublikasının Xalq artisti, professor Fərhad Bədəlbəyli, baş dirijoru Əməkdar artist Fuad İbrahimov olan Bakı Kamera Orkestrinin təqdim etdiyi konsert Azərbaycanın musiqi mədəniyyəti salnaməsinə qızıl hərflərlə adını yazdırmış dahi bəstəkar, musiqişünas, pedaqoq, publisist, ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 139-cu ildönümünə həsr olunub. Kamera musiqisi axşamında tamaşaçılar Xalq artistləri Yeganə Axundova (piano) və Gülnaz İsmayılova (soprano), Nəzrin Aslanlı (violin), Mahir Tağızadə (bariton), Qəmər Kərimlinin (violin) ifasında Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini dinləyiblər.



**Foto S. Umuyevindir.**

# Sənaye məhsulu istehsalının artımı

Cari ilin yanvar-avqust aylarında rayonumuzda fəaliyyət göstərən sənaye müəssisələri, həmçinin fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən faktiki qiymətlərlə 95 milyon 742 min manatlıq məhsul istehsal olunub. Rayon statistika idarəsindən verilən məlumata görə, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 milyon 408,3 min manat və ya 12,2 faiz çoxdur. İstehsal edilən sənaye məhsulunun 10,8 faizi dövlət, 89,2 faizi qeyri-dövlət sektorunun payına düşüb. Səkkiz ayda rayonda 8 milyon 884,4 min manatlıq sənaye məhsulu ixrac olunub. Bu, istehsal olunan sənaye məhsulunun 9,3 faizini təşkil edir. Qurumdan verilən məlumata görə, rayonun sənayesi əsasən mədənçıxarma, emal, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrini əhatə edir. Cari ilin yanvar-avqust aylarında rayonda istehsal edilən sənaye məhsulunun 82,7 faizi emal sektorunun payına düşüb.

*Yaşıl dünya naminə həmrəylik ili*

# "Təmiz Ölkəm" adlı aksiya keçirilmişdir

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "Təmiz Ölkəm" adlı keçirilən aksiyada Qəbələ Rayon İcra Hakimiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyi 6 saylı regional ekologiya və təbii sərvətlər idarəsinin, Qəbələ Regional




Meşə Təsərrüfatı Mərkəzinin, Şahdağ Milli Parkının Qəbələ bölməsinin əməkdaşları və rayon könüllülərinin iştirakı ilə Qəbələ bələdiyyəsinin Şahdağ Milli Parkının Qəbələ bölməsinin "Vəndam" meşəbəyliyinin 3 saylı dolayı ilə həmsərhəd ərazilərində ətraf mühitin məişət və digər tullantılarla çirkləndirilməsinin qarşısının alınması məqsədi ilə 320 kq çəkidə bərk məişət tullantısının təmizlənməsi təmin edilmişdir.

Həmçinin Dövlət Su Agentliyinin Qəbələ bölməsinin, "DOST " MMC - nin əməkdaşlarının və rayon könüllülərinin iştirakı ilə rayonun Bum qəsəbəsi ərazisində yerləşən "Bum çayı"nın mühafizə zolağında təmizlik işləri aparılmışdır. Aksiya zamanı ümumilikdə 3 ha ərazidən 3,5 ton məişət tullantılarının təmizlənməsi təmin edilmişdir.

* * *

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Qəbələ rayonunda növbəti ümumrayon iməciliyi keçirilmişdir. İməcilik zamanı magistral yollar, park və xiyabanlar təmizlənmiş, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək daşınmışdır. Tədbirdə rayon icra hakimiyyətinin əməkdaşları, idarə, müəssisələrin kollektivləri, sahibkarlar və rayon könüllüləri iştirak etmişlər.

# Dünyanın bəlası narkomaniya...

Narkomaniyanın yaranma tarixi çox qədimdir. İnsanlar Aralıq dənizində tiryək xaşxaşını, Asiyada isə çətənə bitkisini aşkar ediblər. Arxeoloqlar e. ə 5700-cü ilə qədər tiryəkdən istifadə olunduğunu sübut ediblər. Çətənə toxumları e. ə 8100-cü ildə Asiyada arxeoloji qazıntılar zamanı aşkar edilib.Qədim Yunan tarixçisi Herodot Skiflərin e. ə 450-ci ildə alaq otların təsirinə məruz qaldıqlarını bildirmişdi.

Narkomaniya Beynəlxalq bir problemdir. Ağ ölüm adlandırılan norkamaniya insan həyatın soldurmaqdan başqa bir iş görmür. Faydalı cəhəti olmasa da zərərləri bitməz və tükənməzdir; özü ilə bərabər hətta ətrafına da zərər vurur. Mühit insan həyatında mühüm rol oynayır. Ona görə də insan əhatəsini , ətrafındakı insanları doğru seçməlidir. Çünki insan mühitə uyğunlaşmaq məcburiyyətindədir. Narkomaniya mühitinə düşmək isə böyük bir bədbəxtlikdir. Bir dəfə ilə heç nə olmaz deyərək düşülən bataqlıqdan çıxmaq o qədər də asan deyil, çox zaman isə mümkünsüzdür. Narkomaniya insanı normal həyat tərzindən uzaqlaşdırır. Özünü şəxsiyyət kimi aparmasında problemlər yaradır, əxlaqi keyfiyyətləri azaldır, insanı ruhən yorur ,qəddarlaşdırır, dözülməz ağrı acılar verir, bunun da səbəbi narkotik maddələrin birbaşa mərkəzi sinir sisteminə təsir edərək onu məhv etməsidir. Azyaşlılar daha tez norkamaniyanın qurbanına çevrilirlər. Həyatda heç bir problemin qaçış yolu pis vərdişlər deyil, narkomaniya insanı xoşbəxt hiss etdirir, sonu isə faciə ilə sonlanır, heç bir məsələyə həll yolu tapmır, həyatı daha da çətinləşdirir. Həmçinin, narkomaniya səssiz şəkildə daxili orqanları məhv edərək insanın həyatına son qoyur. Norkamaniya sonu olmayan bir yoldur. Yazıçı Lev Tolstoy deyirdi: "Mən dünyada iki böyük bədbəxtlik tanıyıram, bunlardan biri vicdan əzabı, o biri də sağalmaz xəstəlik olan narkomaniyadır".

Nəticə olaraq qeyd edək ki, narkomaniya çoxşaxəli bir problemdir və çox geniş nəticələrə malikdir. Bu problemin həlli profilaktika, müalicə və dəstək xidmətlərini əhatə edən kompleks yanaşma tələb edir. Təhsilə, reabilitasiyaya və ictimaiyyətlə əlaqəyə üstünlük verməklə biz narkomaniyanın mənfi təsirlərini azaltda və daha sağlam cəmiyyəti inkişaf etdirə bilərik.Narkomaniyanın qanunsuz dövriyyəsi çoxalsa da, dövlətimiz daima narkomaniyaya qarşı güclü şəkildə mübarizə aparır və qanunsuz dövriyyələrin qarşısını alır. Daha güclü, sağlam, və parlaq gələcəyə sahib olmaq üçün narkomaniyaya yox deyək!

**Nigar PƏNAHLI,**
**Vəndam qəsəbəsi.**